# Şərqi Avropa və Mərkəzi Asiya üçün Azərbaycan örnəyi

***Rusiya Federasiyası ilə imzalanan müttəfiqlik haqqında 22 fevral tarixli Moskva Bəyannaməsi Azərbaycan dövlətinin, onun Prezidentinin, müstəqil diplomatiyasının tarixi uğurudur. İki ölkə arasında qarşılıqlı strateji əməkdaşlıq sənədinin bütün müddəaları milli maraqlarımıza tam cavab verir.***

Hazırda Avropanın təhlükəsizlik sistemində baş verən ağlasığmaz hadisələrin və hərbi-siyasi təhdidlərin fonunda Azərbaycanın belə bir strateji sənədin imzalanmasına nail olması beynəlxalq ekspertlər, siyasi təhlilçilər, diplomatlar tərəfindən böyük maraqla qarşılandı. Fevralın 22– 26-da Vyanada ATƏT PA-nın qış sessiyasında iştirak etdiyimiz günlərdə keçirdiyimiz görüşlərdə Qərb ölkələrinin parlamentariləri Azərbaycanın Rusiya ilə məhz indiki zamanda imzaladığı bəyannamənin ölkəmiz üçün nə qədər mühüm əhəmiyyət daşıdığını qeyd etdilər.

Avropada sülh və təhlükəsizlik üçün məsul olan deputatlar bu hadisəni Prezident İlham Əliyevin diplomatik məharətinin, uzaqgörən və müdrik siyasətinin nəticəsi kimi qiymətləndirdilər. Bu da səbəbsiz deyil. Çünki bu sənəd, bütövlükdə, Azərbaycanın milli maraqlarına və strateji hədəflərinə cavab verməklə yanaşı, həm də ən yüksək əməkdaşlıq nümunəsi olaraq qitədə mehriban qonşuluq və təhlükəsiz gələcək kimi strateji hədəflərə iki ölkənin töhfəsidir.

Bəyannaməyə əsasən, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlər birmənalı olaraq ölkəmizin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına hörmət, eləcə də daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi, qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək prinsipləri əsasında qurulur. Təkcə bu müddəalara görə güclü və qonşu Rusiya ilə belə bir bəyannamənin imzalanması böyük bir siyasi-diplomatik uğurdur.

Sənəddə yer alan digər müddəaların da hər biri bizim üçün kifayət qədər önəmlidir. Odur ki, fikrimi ümumi şəkildə – daha çox bəyannamənin ölkəmizə gətirəcəyi üstünlüklər və dividendlərlə bağlı davam etdirmək istəyirəm.

Əvvələ, Moskva Bəyannaməsi ilə Prezident İlham Əliyev bir daha sübut etdi ki, Azərbaycan dövləti, sözün bütün mənalarında, müstəqil ölkədir və kimliyindən asılı olmayaraq ikitərəfli və çoxtərfəli münasibətlərdə yalnız milli maraqlarından çıxış edir.



Bu baxımdan, Azərbaycan MDB, Şərqi Avropa və dünyanın bir çox ölkələri üçün ən yaxşı nümunədir. Beynəxlaq ekspertlər və ayrı-ayrı ölkələrin siyasətçiləri bu məqamı xüsusi vurğulayırlar.

İkincisi, bu bəyannamə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi möhtəşəm qələbənin siyasi müstəvidə davamı və daha da möhkəmləndirilməsi üçün əlavə zəmanətdir.

Üçüncüsü, Moskva Bəyannaməsi Ermənistanın Rusiyanı hansı formadasa Azərbaycana qarşı qoymaq istəyinin və ümüdlərinin üzərindən birdəfəlik xətt çəkir.

Dördüncüsü, bu strateji sənəddə Azərbaycanın regionda oynadığı aparıcı rolu və geosiyasi maraqları etiraf edilir və təsdiqlənir.

Beşincisi, Moskva Bəyannaməsi Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması prosesinə Rusiyanı cəlb etməklə bölgədə sülhün və təhlükəsizliyin davamlı olmasına əlavə töhfədir.

Altıncısı, bu qarşılıqlı tərəfdaşlıq sənədi Qarabağda sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərin reinteqrasiya prosesinin sürətlənməsi üçün əlavə hüquqi bazadır.

Nəhayət, Moskva Bəyannaməsi Türkiyənin ən yaxın müttəfiqi olan Azərbaycanın mövqeyini möhkəmlətməklə, bölgədə təhlükəsizlik sahəsində mümkün riskləri neytrallaşdırır və bununla qardaş Türkiyənin üzərinə düşən yükü də xeyli azaltmış olur.

Avropanın şərqində qanlı qarşıdurma baxımından onu da xatırlatmaq istərdik ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev MDB dövlət başçıları arasında yeganə liderdir ki, bu il yanvarın 14-də Kiyevə də səfər edib və Ukrayna ilə Strateji Tərəfdaşlığın Dərinləşməsi Haqqında Bəyannamə imzalayıb. Əminik ki, Azərbaycan müstəqil siyasətinin davamı olaraq yaxın aylarda Avropa İttifaqı və digər qlobal mərkəzlərlə də eyni məzmunda strateji sənədlərin imzalanmasına nail olacaq.

Beləliklə, beynəlxalq gərginliyin yüksək həddə çatdığı bir dövrdə Prezident İlham Əliyev sübut etdi ki, Azərbaycan öz maraqlarını müdrikcəsinə qorumağı, geosiyasi təhdidləri məharətlə dəf etməyi bacaran, regional və qlobal güclərin ölkəmizlə hesablaşmasına və ona hörmət etməsinə nail olan yeganə ölkədir. Bu gerçəklik səmasını qara buludlar almış Şərqi Avropada sabaha ümidli qapı açır və Mərkəzi Asiya regionu üçün faydalı geosiyasi perspektiv vəd edir.

***Azay QULİYEV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 4 mart.- S.4.